**Azərbaycan Respublikası**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**

**S Ə R Ə N C A M I**

***№ 10*** ***02 fevral 2016-cı il***

**Siyəzən rayonunda sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması və sərmayələrin cəlb edimәsi məqsədi ilə qərargah yaradılması haqqında**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması və sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqlarının Siyəzən rayonunda icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanı ilə təsdiq edilmiş “ Yerli icra hakimiyyəti haqqında Əsasnamə”nin 3.1.2, 3.5.1, 4.2.8 və 4.8.2 bəndlərinə uyğun olaraq **qərara alıram**:

1. Siyəzən rayonunda sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması və sərmayələrin cəlb edilməsi məqsədi ilə Siyəzən Rayon İcra Hakimiyyətində aşağıdakı tərkibdə Qərargah yaradılsın:

**Qərargahın sədri**

Asif Hüseynov - Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı

**Qərargah sədrinin müavini**

Zəfər Əliyev - Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

**Qərargahın üzvləri:**

Təhminə Bəxtiyarova - Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri

Akif Xıdırov - Siyəzən Rayon İcra Hakimiyyəti başçısının köməkçisi

Şəmşad Əliyev - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri

Səxavət Novruzov - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar

| | |
|---|---|
| Feyyaz Mursaquliyev | - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| Xaqani Bəşirov | - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Vahid Eyvazov | - Siyəzən Rayon Məşğuluq Mərkəzinin direktoru |
| Kamilə Yusifova | - Siyəzən Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru |
| Seyfulla Qasımov | Siyəzən Rayon Baytarlıq İdarəsinin rəisi |
| Niyazi Qədimov | - Siyəzən Suvarma Sistemləri İdarəsinin rəisi |
| Etibar Heydərov | - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini |
| Rəhman Mürvətov | - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının İnformasiya təminatı və təhlil sekorunun müdiri |
| Eldar Muradov | - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin böyük məsləhətçisi |
| Kamil Xəlilov | - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin aparıcı məsləhətçisi |
| Yadulla Kərəmov | - Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Siyəzən rayon bölməsinin sədri |

2. Siyəzən Rayon İcra Hakimiyyətində (23) 304-01-08 nömrəli qaynar xətt yaradılsın və məsul şəxs Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafin təhlili və proqnozlaşdırılması şöbəsinin böyük məsləhətçisi Eldar Muradov müəyyən edilsin. Qaynar xətt ilə daxil olan müraciətlər əsasında ümumi məlumat hazırlanıb hər günün sonunda Qərargah sədrinə təqdim edilsin.

3. Qərargah ciddi təhlillər əsasında rayonun sosial-iqtisadi inkişafı ilə bağlı proqnozlar, habelə sahibkarların, vətəndaşların qəbulu zamanı irəli sürülən fikirlər və qaynar xətt vasitəsi ilə daxil olan məlumatlar əsasında təkliflər hazırlansın, yeni iş yerlərinin yaradılması və sərmayələrin cəlb edilməsi ilə bağlı bütün zəruri tədbirləri həyata keçirsin.

4. Siyəzən Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri və bələdiyyə sədrləri öz ərazilərində sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması və yeni iş yerlərinin açılması üçün səylərini artırsınlar.

5. Görülən işlər barədə məlumatlar hər ayın 1-də və 15-də Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin elektron ünvanına göndərilsin.

6. Bu sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Asif Hüseynov**